1.qxd 01.02.2022 8:06 Page 1



Azərbaycan dünyaya günəş kimi doğacaq.
*Heydər ƏLİYEV*


*Xalqın sözü haqq sözüdür*

# LERİK

**№ 01-02 (6045-6046) 31 yanvar 2022-ci il Qəzet 1937-ci ildən çıxır Qiyməti 40 qəpik**


## Yaponiyanın Azərbaycandakı səfiri Lerikdə



21 yanvar 2022-ci il tarixdə Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vada Cüniçinin Lerikə rəsmi səfərə gəlmişdir.

Səfər çərçivəsində Lerik Rayon İcra Hakimiyyətinin inzibati idarə binasında səfir cənab Vada Cüniçi və Lerik Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev arasında görüş keçirildi.

Çay süfrəsi arxasında davam edən görüşdə rayon icra hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev qonağa rayonun qədim tarixi, coğrafi mövqeyi, adət-ənənəsi, mədəniyyəti haqqında məlumat verərək, aqrar bölmənin dirçəldilməsi üçün həyata keçirilən tədbirləri qeyd etdi, rayonun turizm potensialı və son illərdə görülmüş tikinti-quruculuq işlərini diqqətə çatdırdı. Bugünkü səfərin Yaponiyanın ölkəmizdə səfirliyinin yaranması gününə təsadüf etdiyini bildirdi və cənab səfiri səfirliyin yaranmasının 22 illiyi və ölkələrimiz arasında diplomatik əlaqələrin yaranmasının 30 illiyi münasibəti ilə təbrik etdi.

Bildirdi ki, ötən müddət ərzində iki ölkə arasında səmərəli qarşılıqlı əməkdaşlıq həyata keçirilmiş, çox yüksək səviyyədə münasibətlər qurulmuşdur. Yaponiya Hökuməti Azərbaycanda yaşayan insanların ilkin ehtiyaclarını qarşılaya biləcək inkişaf layihələri üçün "Ot Kökləri Layihələri üzrə Qrant Yardımı (GGP)" adlı sxem üçün maliyyə yardımı təklif etmişdir. 2000-ci ildən bəri sözügedən sxem, bələdiyyələr, tibb müəssisələri və QHT-lər tərəfindən təqdim olunan və insanların yaşayış standartlarını yaxşılaşdırmağa xidmət edən 200 yaxın layihəni əhatə etmişdir. Sözügedən layihələr yoxsulluğun aradan qaldırılması, sosial müdafiə, infrastruktur, ictimai səhiyyə və gəlirin artırılması sahələrində həyata keçirilmişdir. Bu layihə çərçivəsində 2003-2004-cü illərdə Lerik şəhər 3 saylı tam orta məktəbinin tədris korpusu, 2012-ci ildə Lerik rayonunun Şingədulan kənd həkim məntəqəsi inşa edilmişdir.

Son illərdə Yaponiya Hökumətinin "Ot kökləri və insan təhlükəsizliyi" qrant yardımı proqramı çərçivəsində Lerik Rayon Mərkəzi Xəstəxanasının uşaq xəstəlikləri şöbəsinin binası əsaslı təmir olunmuş, Pirasora və Conu kəndlərində tibb məntəqələri tikilərək istifadəyə verilmişdir.





Bütün bu görülmüş işlərə görə səfirin timsalında Yaponiya dövlətinə təşəkkürünü bildirən C.Baxşıyev yeni layihələrin icrasına ümidvar olduğunu bildirdi. 44 günlük Vətən Müharibəsi zamanı Yaponiyanın ölkəmizə göstərdiyi dəstəyə və qələbəmizin rəmzi olan "Xarı Bülbül" döş nişanını sinəsində gəzdirdiyinə görə xüsusi minnətdarlığını ifadə etdi.

Səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını bildirən cənab Vada Cüniçi Yaponiya-Azərbaycan dövlətləri arasında ikitərəfli əməkdaşlığın getdikcə inkişaf etdiyini, Azərbaycanda gedən sosial-iqtisadi inkişafın onda xoş təəssürat oyatdığını, paytaxtla yanaşı region şəhərlərində də inkişafın, müasirləşmənin getdiyini, Lerikdə qarın yaratdığı füsunkar mənzərənin insanda xoş əhval-ruhiyyə yaratdığını və burada olmasından məmnun qaldığını bildirdi.

İki ölkə arasında diplomatik əlaqələrin 30 illiyi münasibəti ilə 2022-ci ildə səfirlik tərəfindən bir sıra rəngarəng tədbirlərin keçiriləcəyini, gələcəkdə də Lerikdə layihələrin icrasının davam etdiriləcəyini qeyd etdi.

Görüşün sonunda qarşılıqlı hədiyyələr təqdim edildi.

Daha sonra səfir "Uzunömürlülər" muzeyi ilə tanış oldu, xatirə kitabına ürək sözlərini yazdı.



## 20 yanvar faciəsi qurbanlarının xatirəsi anıldı

Lerik Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev, icra hakimiyyəti başçısı aparatının əməkdaşları, hüquq-mühafizə orqanlarının, ictimai-siyasi təşkilatların rəhbərləri, ictimaiyyət nümayəndələri 20 yanvar faciəsinin 32-ci ildönümü münasibəti ilə "Şəhidlər" abidə kompleksini ziyarət edərək abidənin önündə tər qərənfillər düzərək şəhidlərin xatirəsini hörmətlə yad etdilər.

20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.

Həmişə dövlətə və dövlətçiliyə sadiq olan leriklilər qan yaddaşımıza əbədi həkk olunmuş özündə faciə və qəhrəmanlığı ehtiva edən 1990-cı ilin 20 Yanvar hadisələrini daim ehtiramla anır, şəhidlərin ruhuna dua edirlər.

## Rayon icra hakimiyyəti başçısı yanında qərargahın iclası keçirildi





13 yanvar 2022-ci il tarixdə Lerik Rayon İcra Hakimiyyəti başçısı yanında ev təsərrüfatlarının uçotu işinin mütəşəkkil qaydada aparılması məqsədilə yaradılmış qərargah üzvlərinin iştirakı ilə onlayn iclas keçirildi.

İclasda qərargah üzvləri ev təsərrüfatlarının uçotu işinin hazırlıq mərhələsi və gedişi ilə bağlı ərazilərdə mövcud vəziyyəti müzakirə etdilər, qarşıya çıxan sualları cavablandırdılar, işlərin vaxtında başa çatdırılması üçün təxirəsalınmaz tədbirlərin həyata keçirməsinin vacibliyini bildirdilər.

Diskusiya formatında davam edən iclasda ərazi icra nümayəndəliklərinin əməkdaşlarına təsərrüfatbaşına uçot kitablarının doldurulması və Dövlət Statistika Komitəsinin elektron informasiya sisteminə müvafiq məlumatların daxil edilməsi qaydaları bir daha izah edildi.

## Vətənpərvərlik tərbiyəsi həmişə aktualdır

***İmummili liderimiz Heydər Əliyev mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm xüsusiyyəti kimi dəyərləndirib. Ulu Öndər bildirib ki, milli-mənəvi dəyərlərini qoruyub saxlayan xalq həmişə müstəqillik yolu ilə getmək və müstəqilliyi qorumaq əzminə olacaqdır. Çünki, milli dövlətçilik və milli-mənəvi dəyərlər arasında sıx bir daxili əlaqə vardır. Bu mənada milli kimliyi bəlli olan, özünü bir millət kimi dərk edən xalqın aydın və perspektivli inkişaf yolun ola bilər.***





Milli-mənəvi dəyərlərimizi gənclərə aşılamaq üçün ilk növbədə maarifləndirmə işləri aparılmalıdır. Bu mənada bizim üzərimizə düşən məsuliyyət yükünü daşımağı bacarmalıyıq. Örnək olaraq qardaş Türkiyəyə baxmağımız yetərlidir. Türkiyədə vətənpərvərliyi təkcə müharibə etməkdə görmürlər. Gənclərə bayrağa, Vətənə, millətə sevgini kiçik yaşlarında aşılayırlar. Onlar bununla bəzi şeylərin müharibəsiz də mümkün ola biləcəyini dünyaya bəyan edirlər. Məhz Azərbaycan gəncinə milli-mənəvi dəyərlərimizin çox müqəddəs olması fikri aşılanmalıdır.

Vətənpərvərlik tərbiyəsi öz Vətəninə sevgi və məhəbbət hissinin, vətəndaş məsuliyyətinin, hər an Vətəninin və xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşması üçün olduqca vacibdir. Bu baxımdan təhsil müəssisələrində təlim-tərbiyə işinin düzgün təşkili mühüm əhəmiyyətə malikdir.

Dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvərlik tərbiyəsi işinin təmin edilməsi istiqamətində məqsədyönlü və sistemli tədbirlər həyata keçirirlir. Bu sahədə aparılan kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işi gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə məhəbbət hissinin yüksəldilməsinə xidmət edir.

Məktəbimizdə tədris olunan "Gənclərin çağırışaqədərki hazırlığı" fənni şagirdlərə Azərbaycanın Silahlı Qüvvələri haqqında məlumatların, hərbi nizamnamə qaydalarının mənimsədilməsini, onların ordu həyatı ilə tanış olmalarını, şagirdlərdə hərbi xidmətin müqəddəs borc və şərəf olmasına inamın yaradılmasını, vətənpərvərlik, əqidəlilik, dözümlülük, cəsurluq, intizam və şəxsi məsuliyyət hissi kimi mənəvi keyfiyyətlərin inkişaf etdirilməsini, mülki müdafiə və ilkin tibbi yardım bacarıqlarının formalaşdırılmasını həyata keçirir.

Qloballaşma prosesi elm, texnika, texnologiya ilə, ümumbəşəri dəyərlərlə yanaşı milli kimliyi müəyyən edən mədəni-mənəvi amillərə siyarət etməyə cəhd göstərir. Bu gün bizim vətəndaş borcumuz milli-mənəvi dəyərlərimizə, doğma torpağımıza, doğma ana dilimizə, mədəniyyətimizə böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan və onu təbliğ etməkdən ibarətdir.

Məktəbimizdə şagirdlərin vətənpərvərlik tərbiyəsi sahəsində aparılan işlərin daha intensiv xarakter alması, şagirdlərdə fəal vətəndaş mövqeyi və yurda, torpağa sədaqət hissi formalaşdırılması diqqət mərkəzindədir.

***Asəf Bədəlov,***
***V.İbrahimov adına Lerik şəhər İnteqrasiya təlimli, internat tipli gimnaziyanın direktoru***

## Qardan güclü

***Lerik rayonunun çətin dağ relyefi, mürəkkəb coğrafi şəfraiti burada yaşayan sakinlər üçün adiləşib. Onlar uca dağların qoynundakı kəndlərdə yaşayır, hər bir çətinliyə sinə gərir, qurub-yaradır, sabaha ümidlə baxırlar. Tarixin sonrakı illərində həmişə rayon sakinləri üçün problemə çevrilən yolların tikintisinə, təmirinə, yeni yolların açılmasına diqqət xeyli artıb. Dövlətimizin qayğısı sayəsində Şingədulan, Daster, Kəlvəz, Nuravud istiqamətinə yön alan yollar yenidən çəkilib, asfaltlanıb, suötürücü qurğular tikilib. Lənkəran-Lerik şose yolu daha da rahat olub. Burada əsaslı tikinti işləri görülüb. Yol genişləndirilib. İndi qeyd elədiyimiz istiqamətlərdə sərnişinlər mənzil başına daha tez, rahat və təhlüəkəsiz çatırlar. Gələcəkdə də yol infrastrukturu diqqət mərkəzində olacaq.***

Bəs 52 saylı yol istismatı MMC-nin kollektivi yanvar ayında yağan qarın qalınlığı 35-40 sm-ə çatarkən, yollarda nəqliyyatın hərəkəti çətinləşərkən hansı operatib tədbirlər görüb? Bu sualla MMC-nin baş mühəndisi Ziyafət İsmayılova müraciət etdik. O, dedi:

- 2022-ci ildə ən çox yağan qar rayonun kəndara yollarında, Lənkəran-Lerik magistralında avtonəqliyyat vasitələrinin hərəkətini xeyli çətinləşdirmişdi. Əsən soyuq külək əriyən qarı buza çevirmiş, yolları sürüşkən etmişdi. Bütün bunları nəzərə alaraq yol istismarı MMC-nin sədri Elxan Əliyevin rəhbərliyi ilə növbətçilik cədvəli tərtib edilmiş, işçi qüvvəsi və texnika səfərbərliyə alınmışdı.



Rövşən Məmmədovun idarə etdiyi "TATRA" markalı qartəmizləyən maşın, Tamerlan Həndəmovun və Eldar Ağayevin sərəncamındakı avtoqreyder Lənkəran 40-cı kilometr və 40-cı km - Lerik yolunu bir neçə dəfə qardan təmizlədilər, bununla da həm avtonəqliyyatın, həm də sərnişinlərin gediş-gəlişi təmin edildi. Yollarda hərəkətin təhlükəsizliyi üçün 120 kubmetr duz-qum qarışığını Bəkir Vəliyevin və Şahmar İbadovun briqadaları çətinliklərə baxmayaraq eniş-yoxuşlarda, döngələrdə yolun buzu əriməyən hissələrinə səpərək hərəkəti təmin etdilər. Zuvand yolu qardan təmizləndi, yollara qum qarışığı səpildi. Şingədulan, Lerik şəhər daxili küçələrinin qardan təmizlənməsində mexanizator Xalid Mövlanov daha çox fərqlənmişdir. Həm də bu yollar yağan qardan təkrarən təmizlənmişdir.

Lerik RİP rəhbərliyi, rayonun əhalisi yolları intensiv yağan qardan vaxtında təmizləyən, avtonəqliyyatın fasiləsiz hərəkətini təmin edən MMC-nin rəhbərliyinin, yol işçilərinin fədakarlığını müsbət qiymətləndirmişdir.

***Babək***

1.qxd 01.02.2022 8:06 Page 2



# Gözlərimin qarşısında şəhid olan silahdaşlarımı unuda bilmirəm...



*Qısa tanıtma*

***Mirbaba Əsgərəli oğlu Babayev. Vətən müharibəsinin qazisi. 1998-ci ilin aprel ayında anadan olub. Atası Əsgərəli ailəsi ilə bərabər Sabirabadın Qalaqayın kəndinə köçüb. Ailəd Mirbaba sonbeşik idi. O, 2016-cı ildə Hacı Zeynalabdin Tağıyev adına orta məktəbi bitirib. Sonra həqiqi hərbi xidmət dövrü başlayıb. Beynəlxalq hərbi təlimlərdə iştirak edib. Kəşfiyyatçı kimi formalaşıb. Ordudan tərxis olduqdan sonra bir müddət Bakı şəhərində işləyib...***

Mirbaba ilə Bakının Binə qəsəbəsində görüşdük. Qabaqcadan görüş vaxtı təyin etmişdik. Xudmanı bir çayxana seçdik. Söhbət öncəsi o kofe sifariş etdi. Mənim üçün gətirilən çay soyuduğu üçün yenidən qaynar çay gətirilməsini rica etdim.

Mirbaba siqareti-siqaretə calayırdı. Səbəbini soruşdum. O, ötənilki Vətən müharibəsində döyüş meydanlarını, şəhid və qazi qardaşlarını, azadlığa çıxmış yaşayış məskənlərini - Qarabağın dağını, daşını, gülünü, çiçəyini, eməni iyi verən müdafiə xəttini, səngərləri çətin də olsa yada salır, düşmənin qoyub qaçdığı silah-sursata, hərbi texnikaya ikrahla baxır, sanki yenidən döyüş meydanlarına atılır, top-tüfəng səsi, mərmi vıyıltısını eşidir, "Haydı igidlərim, ancaq irəli! Düşmənin amanını qırın, müdafiə xəttini yarın!" deyən komandirin igid, məğrur, qorxmaz surəti gözlərinin qarşısında canlanır...

Söhbətə körpü qoyduq. Mirbaba suallarıma təmkinlə cavab verdi.

- Şəhidlik və qazilik döyüş sınağında ən uca məqamlardandır. Bu şərəfli yolu keçən mərd oğulların mənəvi güc mənbəyi Vətən sevgisi və döyüşçü ləyaqətidir. Vətən torpağının müqəddəsliyini dərk edən, uğrunda vuruşmağı öz qeyrət borcu bilən döyüşçüyə tuşlanan düşmən gülləsindən onun iradəsi büdrəməz, döyüşçü ruhu, qətiyyəti yenilməz. Döyüş meydanında hünər göstərən oğulların sırasına daxil olanda nə fikirləşirdiniz?

- Mən və Vətəni azad etməyə, bu yolda canını qurban verməyə hər an hazır olan, həmyaşıdlarımın - azadlıq ordusunun əsgərlərinin çoxu Qarabağın işğalından yaşca xeyli kiçik idi. Biz qələbə ruhunu, inamını, döyüşçü əzmini arxa cəbhədə birləşən xalqımızdan alırdıq. Bu dəstəyi, bu birləşən ürəyi biz çox yaxşı hiss edirdik. Və bu, bizi qələbəyə kökləyirdi. Müəllimlərimiz bizə 20 faiz torpaqlarımızın işğal altında olduğunu deyəndə utanırdım. Bəzən düşünürdüm ki, görəsən Tanrı bizə torpaqlarımızı işğaldan azad etmək fürsəti verəcəkmi?

Və belə bir fürsət 44 günlük Vətən müharibəsində yarandı. Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun fədakarlığı, arxa cəbhənin, qardaş ölkələrin dəstəyi şanlı Qələbəmizi təmin etdi.

***- Döyüşən orduya nə vaxt daxil oldunuz, ilk döyüşləri necə xatırlayırsınız?***

- Sentyabrın 27-də müharibənin başlaması xəbərini həyəcanla qarşıladıq. Lakin əvvəl-axır bu azadlıq müharibəsi olmalı idi. Sabirabad hərbi komissarlığı tərəfindən səfərbərliyə çağırıldım. Əslində biz müharibəyə könüllü getməyə hazır idik. Axı, bu günü illərdən bəri gözləmişdik. Biz Ağcabədidəki təlim-məşq toplantı məntəqəsində bir həftə olduq, döyüşməyə kökləndik. Mən tank əleyhinə idarə olunan raket atıcılığını öyrəndim. İlk döyüşümüz Cəbrayıl istiqamətində oldu. Artıq bir neçə kənd azad edilmişdi. Canlı qüvvə və hərbi texnika sarıdan böyük itkilərə məruz qalmış düşmən yerləşdiyimiz mövqeləri uzaq məsafədən minaatanlardan və digər artilleriya qurğularından fasiləsiz atəşə tutmaqla, düçar olduğu məğlubiyyətin əvəzini çıxmağa çalışırdı. Çünki düşmən bizimlə üzüzə gəlməyə qorxurdu. Düşmən leşlərini qoyub qaçırdı, amma bir heç bir şəhidimizi, yaralımızı döyüş meydanında qoymurduq, mütləq çıxarırdıq.

***- Cəbrayılın azad edilməsində sizin də iştirakınız olub. Döyüşçü yoldaşlarınızın fədakarlığı misilsizdir, elə deyilmi?***

- Bizim döyüş yolumuz Cəbrayıl rayonu ərazisindən keçib. Bu istiqamətdə düşmənin müdafiə xəttinin yarılması, texnikasını cəmləşdiyi atəş nöqtələrinin susdurulması kimi çətin döyüş tapşırıqlarının yerinə yetirilməsində xüsusi təyinatlılar şücaət göstəriblər. Bu döyüşlərdə xüsusi təyinatlıların 13 nəfərlik kəşfiyyat qrupuna daxil idik. Qrupumuzun üzvlərindən Fikrət, Fərrux, Əli, Elnur, Dilqəm, Oruc, Əliabbas, Tural, İsmayıl, Ələmdar, Nizami, Pərviz düşmənə aman vermir, xüsuzi təyinatlıya xas cəsurluqla vuruşur, öz silahından açdığı sərrast atəşlə onlarla işğalçını məhv edirdilər. Biz dağa qalxan kimi ermənilər postlarını qoyub qaçdılar. İkinci dəfə həmin postu tutduq.

***- Döyüşlərdə düşmən məğlub olacağını başa düşmüşdü. Lakin özünü o yerə qoymur, son ümidi ağır artilleriyadan, minaatanlardan atəş açmağa qalırdı...***

- Ancaq döəşünə döyən düşmən Azərbaycan Ordusunun qarşısında çox aciz idi. Bunu hər gün irəliləyərək torpaqlarımızı, şəhər, kənd və qəsəbələri azad etməyimiz çox aydın göstərirdi. Oralar çox gözəl idi, mütləq azad edilməli idi. Mən bu müharibədə gördüm ki, gənclərimiz əslində bambaşqaymış. Onları döyüşdə, çətin anlarda tanımaq lazımmış. Gənc Azərbaycan əsgəri özünü Vətən müharibəsində təkcə bizə, xalqımıza yox, bütün dünyaya tanıtdı. Əsas odur ki, torpaqlarımız azad olundu.

Düşmənin namərdliyi müharibədə özünü göstərdi. Geri çəkilərkən yerə minalar basdırmışdı. Bu, bizdən diqqətli olmağı, peşəkarlıq tələb edirdi. Qubadlının Bala Soltanlı kəndini ələ keçirməliydik. Kəşfiyyat xəbər verdi ki, yollar minalanıb. Qrupumuzun rəhbəri Polad Rzayev idi. O, döyüşdə bir ayağını itirmişdi. Biz meşəlikdə bir neçə gün müşahidə etdik. Düşmən kənddən çıxmağa məcbur idi. Nə canlı qüvvə, nə də zirehli texnika, silah-sursat işğalçını qoruya bildi. Bizim qrup kəndə ilk daxil olanlardan idi.

Mirbaba dedi ki, bizi Daşaltıya göndərdilər. Orada bir ay qaldıq. Daşaltı Şuşa şəhərindən 5 kilometr Cənubda, Cıdır düzündən aşağıda, Şuşa-Laçın avtomobil yolunun kənarında, çayın kənarında yerləşir. Daşaltı nəhəng qayalığın altında yerləşdiyindən belə adlanır. 1992-ci ilin yanvar ayında tağımımız düşmən pusqusuna düşmüş, 90-dan arıq şəhid verərək geri çəkilmişdi. Azərbaycan Ordusu kəndi azad etdi, şəhidlərin qisasını aldı. Mirbabagil burada ikimərtəbəli evdə qalırdılar. Otağı birtəhər qızdırıb əmr gözləyirdilər. Qələbədən doğan Zəfər ona və silahdaşlarına bütün ağrı-acılarımızı unutdururdu.




Yanvarın 18-də tərxis olunan Mirbaba Babayev qələbə ilə evinə qayıtdı. Onun gəlişi münasibətilə üç qurban kəsildi, qonum-qonşuya paylandı.

***- Qələbə xəbərini harada eşitdiniz, hansı hissləri keçirirdin?***

- Noyabrın 10-da Şuşanın düşməndən azad olunması xəbərini eşitdik. Bu xəbər gözlənilən idi. Sevincimiz hədsiz olsa da, şəhid qardaşlarımızı xatırladıqca qəm-qüssə bizi bürüyürdü. Biz də şəhid ola bilərdik. Qismət belə imiş.

Gözlərimin qarşısında şəhid olan silahdaşlarımı heç vaxt unuda bilmirəm. Bəzən onları yuxuda görürəm. Allah ruhlarını şad eləsin. Bir də kəşfiyyat qrupunun rəhbəri Azəri, tağım komandirləri Osmanın, Zaurun cəsarəti, mərdliyi, Vətənə məhəbbəti, torpaq sevgisi, zabit şərəfi, dostluğa sədaqəti və cəsarəti önündə baş əyirəm. Biz Vətəni necə azad etməyi, qalib gəlməyi bacardıq. Azərbaycan əsgərinin nəyə qadir olduğunu gördük, Qələbə sevincini yaşamağı öyrəndik.

*İdris Şükürlü*

*Tarixi ədalət bərpası*

# Şuşa Azərbaycanın tacıdır



***Müqəddəs Dənziyev, Lənkəran Regional Mədəniyyət İdarəsinin Lerik rayon nümayəndəsi***

***44 günlük Vətən müharibəsinin, bəzi əzəli yurd yerlərimizə qovuşduran haqq savaşımızın bir ilini arxada qoyduq. Azərbaycan Ordusu bu qısa müddət ərzində Ermənistan üzərində parlaq qələbə qazanaraq düşməni ağır məğlubiyyətə düçar etdi.***

Ötən il dekabrın 10-da paytaxt Bakının Azadlıq meydanında Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı Qələbəyə həsr olunan ilk Zəfər paradındakı çıxışında ölkə başçısı İlham Əliyev deyib: "...Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq"

Prezident İlham Əliyev 2021-ci ilin may ayında imzaladığı sərəncamla Şuşanı "Azərbaycanın mədəniyyət paytaxtı" elan edilmişdir. Bu sərəncamla, demək olar ki, Şuşa qədim musiqi beşiyi statusunu özünə qaytardı. Belə qənaətə gəlmək olar ki, bütüm dünyada yeganə dili olan musiqi Şuşanı bəşəriyyətə mədəniyyət beşiyi kimi tanıtdı. 2022-ci il isə Prezident tərəfindən "Şuşa ili" elan olunmuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vaxtilə işğal altında olan ərazilərimiz haqqında dediyi "Şuşa Azərbaycanın ən əziz və ən böyük tarixi olan bir güşəsidir... Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!" fikirlərini, arzularını Prezident İlham Əliyev həyata keçirmişdir. Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan tam deyildi. Şuşasız, Qarabağsız illəri bu inamla yaşadıq və bu inam bizi yaşatdı, doğma yurda qaytardı... Müzəffər Ordumuz noyabrın 8-də Şuşa şəhərini erməni işğalçılarından azad etdi. "Xarıbülbül" musiqi festivalındakı çıxışında Prezidennt İlham Əliyev bu bayramı yüksək qiymətləndirmişdir: "Biz Şuşanı quracağıq, bərpa edəcəyik, mənfur düşmən isə Şuşanı dağıtdı. İndi siz - burada olan vətəndaşlar, dostlar gəzəcəksiniz, görəcəksiniz ki, Şuşa hansı dağıntılara məruz qalıb... İndi isə biz burada, Cıdır düzündə - hər bir azərbaycanlı üçün müqəddəs olan yerdə yığışmışıq və bu musiqi bayramını, bu qayıdış bayramını, bu ləyaqət bayramını qeyd edirik".

Şuşa bayramında hər bir azərbaycanlının, bu torpağı, dövləti sevən hər bir insanın qəlbi Şuşa ilə bir döyünürdü. Şuşa Azərbaycan həqiqətlərini dünyaya bəyan edirdi. Şuşa din, əqidə, məslək qardaşları ilə qoşa dayanmışdı. Talışı, ləzgini, rusu, avarı, tatı, yəhudini, udiləri, ingiloyları, malakanları, Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda inamla mübarizə aparan xalqların nümayəndələrini əziz övladı kimi qoynuna almışdı. "Xarıbülbül" musiqi festivalı Azərbaycan Prezidentinin, Ali Baş Komandan İlham Əliyevin, qəhrəman Ordumuzun, yenilməz, cəsur xalqımızın böyüklüyünü, əzəmətini, torpaq, Vətən uğrunda birliyini, qürurunu nümayiş etdirirdi.

Mədəniyyət, o cümlədən musiqi beşiyi olan Şuşa dünyaya korifey sənətkarlar yetirməyi ilə də tanınıb və sevilib. Bu qədim şəhəri Azərbaycan musiqisinin beşiyi, "Qafqazın konservatoriyası" adlandıranlar haqlıdır. Şuşa tarixən Qarabağın zirvə tacı olub. Şuşanın 8 muzeyi, 7 uşaq musiqi məktəbi, 1 uşaq incəsənət məktəbi, 22 ümumtəhsil məktəbi, rəsm qalareyası, 8 mədəniyyət evi, 2 kinoteatrı, 31 kitabxanası, 22 klubu, 1 mərkəzləşmiş kitabxna sistemi və onun da 12 filialı var idi.

XIX yüzillik Şuşada ədəbi mühitin qızıl dövrü hesab olunur. Şairə Xurşidbanu Natəvan, rəssam tarixçi, şair Mir Mövsün Nəvvab, sonralar Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiiyev, Yusif Vəzir Çəmənzəminli, Süleyman Sani Axundov kimi yazıçı-dramaturqlar da məhz bu şəhərdə yazıb-yaradıblar. XIX əsrin ikinci yarısında böyük musiqi mərkəzinə çevrilmiş Şuşa öz məlahətli səsləri və böyük sənətkarlıqları ilə tanınan Hacı Hüsü, Məşədi İsi, Bülbülcan, Cabbar Qaryağdı oğlu, Keçəçi Məhəmməd, Segah İslam, Zabul Qasım, Malıbəyli Həmid, Musa Şuşinski, Məcid Behbudov, Mütəllim Mütəllimov kimi məşhur xanəndələr yetirib. Xanəndəlik sənəti ilə bağlı Sadıqcan, Məşədi Zeynal, Məşədi Cəmil Əmirov, Qurban Pirimov kimi tar, qəzəl, kamança ifaçıları da məşhur olub Şuşada. Bir çox peşəkar bəstəkarlar yurdudur Şuşa.

1848-ci ildə Şuşada ilk tamaşa səhnələşdirilib. Dahi Məhəmməd Füzulinin "Leyli və Məcnun" poeması əsasında Məcnunun Leylinin qəbri üstündə səhnəsini musiqili tamaşa kimi 1897-ci ildə Şuşada Cabbar Qaryağdıoğlunun iştirakı ilə Əbdürrəhim bəy Haqverdiyev qoyub.




Şuşada rəsmi qeydə alınmış 170 memarlıq və 160 incəsənət abidəsi, Xurşidbanu Natəvanın, tam artilleriya generalı Səməd bəy Mehmandarovun, məşhur müğənni Bülbülün, şair və rəssam Mir Mövsün Nəvvabın, Üzeyir bəy Hacıbəylinin, ev-muzeyləri, İbrahim xanın və onun qızı Böyükxanımın qəsrləri, "Gəncə darvazaları", qala divarları və s." var idi.

Əsası Pənahlı xan tərəfindən qoyulan Şuşa 1992-ci il mayın 8-də erməni silahlı qüvvələri tərəfindən işğal olunub. Şuşalı didərginlər respublikanın 50-dəl şəhər və rayonunda məskunlaşdılar. Şuşanın işğalı zamanı şuşalılar 200-ə yaxın şəhid verib, 150 nəfər isə əlilə çevrilib. Əsir götürülmüş 60 şuşalının taleyi hələ də bilinmir. 552 körpəsi yetim qalan şuşalıların 22 min nəfəri öz yurdundan didərgin düşüb. Artıq faciəli, nisgilli günlər arxada qalıb. Çox keçməz ki, ermənilərin dağıtdığı məkanlardan əsər-əlamət qalmayacaq. Hazırda Prezidentin sərəncam və tapşırığına əsasən Şuşaya gedən 101 kilometrlik "Zəfər" yolunun tikintisi davam etməkdədir. Bu yol Şuşanın düşməndən azad edilməsinin mənəvi rəmzidir.

# Cəbrayılın yanına tələsdi

***Mən onunla bir neçə dəfə görüşmüşdüm. Lerik şəhərinin Nizami küçəsi ilə addımlayan məğrur baxışlı əfqan döyüşçüsü ilə özüm tanış olmuşdum. O, mənə Sovetlər Birliyinin Əfqanıstandakı məhdud qoşun kontingentinin tərkibində dörd il xidmət edərkən keçdiyi ağır və üzüntülü döyüş yolundan maraqlı xatirələr söyləmişdi. Cəbrayılın xidməti qiymətləndirilmiş, mükafatlara, medallara layiq görülmüşdü. Qazaxıstanda altı aylıq kursu başa vuran kimi onu Əfqanıstana göndərdilər. Burada döyüş tapşırıqlarını yerinə yetirirdi. "Əfqan xalqından təşəkkür", "Döyüşdə fərqlənməyə görə", "Mərdliyə görə" və s. medalları ilə təltif edilmişdi. Ən böyük sevinci, aldığı müəkafat isə sağ-salamat Vətənə, balalarının yanına dönməsi idi...***




Cəbrayıl Əfqanıstanda olduğu illər ərzində bərkə-boşa düşmüş, əsl həbçi kimi formalaşmışdı. Hərbi müddətindən artıq qulluq edən Cəbrayıl Ağayev barədə kitab yazmaq, film çəkmək, dastan qoşmaq azdır. Təmkinli, qeyrətli, sözübütöv, Vətəni hədsiz sevən qorxmaz fədai, el-oba ilə nəfəs alan bir igid idi. Heç vaxt gördüyü işin əvəzində kimdənsən "sağ ol", "təşəkkür" gözləməzdi. Elədiklərini özünə borc bilirdi. Müharibədən sonra ailə qayğıları ilə yaşamaq, körpələrini böyütmək, el-obanın dərdinə yanmaq istəyirdi. Milli Ordu quruculuğunda fəal iştirak etmək üçün onun da bir müddət hərbi qulluqda olmaq fikri vardı. Hələ torpaqlarımızda "daş", "tüfəng" davası gedən ərəfədə deyirdi ki, arxalı köpəkləri torpaqlarımızdan vurub çıxartmaq üçün Azərbaycana mütləq nizami ordu, peşəkar döyüşçülər lazımdır.

Cəbrayıl Ağayev 1964-cü ilin yayında Şivlə kəndində anadan olub. Məktəbdə təhsil aldıqdan sonra Rabitə Texnikumunu bitirib. Əsgərlikdən sonra sərhəd alayında hərbi qulluqda olub. Baş gizir kimi 1993-cü ilə kimi orada xidmət edib. Azərbaycanın Qarabağ ərazisinə erməni təcavüzü, suverenliyimizə qəsdi, soydaşlarımızın yurd-yuvasından didərgin salınması, şəhidlərin qisasının alınmaması Cəbrayılı hər gün düşündürürdü. O, könüllü olaraq Qarabağın müdafiəsinə qalxdı. Vzvod komandiri Cəbarayılın döyüş yolu Şuşa-Laçın, Kəlbəcər, Füzuli bölgələrindən keçib. Qanlı vuruşmalarda dəfələrlə ölümlə üzüzə gəlsə də keç kəsə demirdi. Bircə şair əmisi Qədiməli Əhmədə hərdən sirlərini açardı. Gənc bir əsgəri güllə ilə



yağışı altından necə çıxarıb, ona ikinci həyat bəxş etməsini tez-tez xatırlayardı. Füzulidə tank batalyonu komandiri, yaralanmış Səyavuşu xilas etdikdən sonra döyüşçülər arasında çaşqınlıq düşməsinə yol verməmiş, döyüşə özü rəhbərlik etmişdi. Şuşa-Laçın dəhlizinə bir müddət Cəbrayılgilin dəstəsi nəzarət etmişdi. O, 33 kəndin geri almasında böyük hünər gösərmişdir. Xidmətləri "Azərbaycan bayrağı" ordeninə layiq görülmüşdür.

1993-cü ilin yanvar ayının 1-i idi. Kəlbəcərdə yeni döyüş mövqelərinə yollanan maşın karvanının önündə Cəbrayıl Ağayevin mindiyi maşın gedirdi. Düşmənin atdığı "qrad" mərmisi həmin maşına dəyərək onu partlatdı. Maşındakıların hamısı, eyni zamanda Cəbrayıl Ağayev də qəhrəmanlıqla şəhid oldu. Şair dostum Qədiməli Əhməd 30 yaşlı şəhid əmisi oğlu Cəbrayılın keşməkeşli taleyi barədə "Gözlər yol çəkir" adlı poema yazıb çağp etdirmişdir. Əsərdə Cəbrayılın parlaq obrazını görürük, onun hiss və həyəcanlarını duyuruq, müharibənin acı nəticələrinə təəssüfənirik.

Cəbrayıl Əfqanıstanda keçən günlər barədə gündəlik yazmışdı. Nələr yoxdu bu gündəlikdə? Gündəlikdə belə bir cümlə yazmışdı: "Əfqanıstanda keçirdiyim günləri heç vaxt unutmaram. Hərdən düşünürəm: Sovet rəhbərliyi tərəfindən Əfqanıstana göndərilməyimiz bizə lazım idimi?"



Son döyüşdən qabaq Cəbrayıl kəndə gəlmişdi. Oğlanları Teymur və Seymur üçün bərk darıxmışdı. Cəbrayıl yenidən döyüş meydanına yola düşərkən ömür-gün yoldaşı Səbzə ona demişdi: "Cəbiş, özündən muğayat ol. Gündə bir xəbər gəlir, balalarını düşün..." Səbzəni yandıran bu idi ki, ciyərparası Teymurun "Cəbiş haçan gələcək, axı, Cəbiş hara gedib?" suallarına cavab tapa bilmirdi. Əvəzində göz yaşları yaz yağışı kimi yanaqlarına süzülür, uşaqları dedikləri sözə peşman olurdular.

Cəbrayılın ölümündən iki ay sonra Səbzə onun son yadigarını dünyaya gətirdi. Qoynunda gəzdirdiyi Səidəni həyata gətirmək üçün yaşayırmış. Sonra da körpənin baxışlarına dözə bilmədi. Bir yandan da Cəbişin dərdi saraldıb-soldurdu onu... Səbzə də bacımız Cəbrayılın yanına tələsdi, ona qovuşdu. Şəhid ərinin dərdindən o özü də şəhid oldu: İlhamın məhəbbətinə qurban getmiş Fərizə kimi...

***İdris Şükürlü***

1.qxd 01.02.2022 8:06 Page 3



# Dünyanın sahmanı pozulan gecə

Dünyanın sahmanı pozulan gecəni - 1990-cı ilin 20 Yanvar gecəsini unutmaqmı olar?! Həmin gecə 19-u yanvardan başlanğıc götürmüşdü. Mixail Qorbaçovun əmri ilə sovet ordusunun müxtəlif təyinatlı ordu birləşmələri guya Azərbaycanda hökuməti və sabitliyi qorumaq məqsədilə Bakıya və bəzi bölgələrə yeridilmişdi. Məqsəd nə idi? Çürüməkdə olan Rusiya imperiyasının dağılmasının qarşısını almaq, sovet rejimini zor və silah gücünə qoruyub saxlamaq, oyanmaqda olan xalqın milli-azadlıq hətəkatını boğmaq, azadlığa, müstəqilliyə və suverenliyə çağıran liderləri həbsə atdıraraq onları tutduqları yoldan çəkindirmək, bir sözlə, velikorus şovinizminin çirkin niyyətlərini həyata keçirmək.

Vilnüs, Tbilisi, Alma-Ata, sonra da növbə Bakıya çatdı. "Şanlı qızıl odunun" əsgərləri 20 yanvarın məşum gecəsində qırğın törətdilər, Bakıda dağıntılara rəvac verdilər, 131nəfər şəhid edildi, çoxlu dinc sakin yaralandı və şikəst oldu. Azərbaycan xalqına böyük mənəvi zərbə dəydi, azadlıq carçıları zindanlara atıldı.

Boş əllə zəhmli hərbi texnikanın yolunu kəsən, ürəyinə, gözünə, açıq alnına sıxılan güllələrdən çəkinməyən, əyilməyən, sınmayan mərd və qeyrətli oğul və qızlarımızdı!

1990-cı illərdə fədakar jurnalistlər, cəsarətli media da vuruşurdu, xalqın haqq səsini dünyaya yayırdı. Həmin illərin gerçək hadisələrini əks etdirən qəzet, jurnal nümunələri, kitablar şəxsi arxivimin nadir müsxələridir və mənə çox əzizdir.

Budur, azadlıq carçısı və ilk müstəqil qəzet olan "Azərbaycan"ın 1990-cı il 24 fevralında (N-3) 200 min nüsxə ilə tirajlanan sayı qarşımdadır. Birinci səhifəsində xalq şəhidləri ilə vidalaşaraq Şəhidlər Xiyabanına yola salır - bu bütöv bir foto-şəkil, qəhrəmanlıq salnaməsidir. Qəzetin 2-ci və 3-cü səhifələrində Azərbaycanın və dünyanın bir çox yerlərindən alınmış teleqramlar, başsağlıqları, etiraz məktubları dərc edilmişdir. "Məktublar - göz yaşı, məktublar - ümid..." başlığı altında verilmiş ürək çırpıntılarıdır bunlar!

"And yerimiz" adlı irihəcmli baş məqaləni qəzetin baş redaktoru, azadlıq carçısı Sabir Rüstəmxanlı publistikanın imkanları daxilində, ustalıqla qələmə almışdır.

### Həmin dövrdə...

Yəni, 90-cı illərdə mən ailəmlə birlikdə Bakıda yaşayırdım. Vaxt tapan kimi qəzet redaksiyalarına gedib yazılarımı çap etdirirdim. Onların arasında 20 yanvar hadisələrini əks etdirən məqalələrim xüsusi yer tutur. O məşum günlər taleyimə həmişəlik həkk olunub. Görkəmli şair, "Mədəniyyət" qəzetinin redaktor əvəzi Şahmar Əkbərzadənin oxuculara, fəal müəlliflərə xoş münasibətini görüb onunla tanış olmuşdum. O bir insan kimi məndə yüksək təəssürat yaratmışdı. Şahmarın çap olunmuş təzə şeirlərini oxuyanda könlüm açılırdı. Yaxşı yadımdadır, yanvar hadisələrindən bir il ötmüşdü. Yanvarın 19-da "Azərbaycan" nəşriyyatında yerləşən "Mədəniyyət" qəzetinin redaksiyasına getdim. İk rastıma çıxan elə Şahmar müəllimin özü oldu. Salam-kalamdan sonra o məndən soruşdu:

- Çap etdirmək üçün hazır yazın varmı?

- Bir yazı gətirmişəm.

- Nədən yazmısan?

- 20 yanvardan bəhs edir, həm də "İzvestiya" qəzetinin fotomüxbiri Vladimir Svartseviçin nafələfliyinə toxunmuşam. Sizin qəzetinizin 9 yanvar tarixli sayında bir məqalə dərc olunub: "Ara qızışdırmağa görə mükafat". Orada həmin jurnalist tənqid olunub.

- Yazını ver, oxuyum, - deyə Şahmar Əkbərzadə əlindəki kağızı, qələmi kənara qoydu.

Mən də məqalə yazılmış vərəqləri Şahmatr müəllimə uzatdım. Oxudu və xoşuna gəldi. Məsul katibə tərəf döndü:

- Dərhal yığdırın və qəzetin səhərki nömrəsində çap olunsun. Axı, səhər qara yanvarın birinci ildönümüdür.



Beləliklə, "Mədəniyyət" qəzetinin 20 yanvar 1991-ci il (N-3) tarixli sayının 2-ci səhifəsində "Haqq səni kəssin!" başlıqlı məqaləm çap olundu. Onda qəzet 33 min 835 nüsxə ilə tirajlanırdı.

**Həmin məqaləni oxucuların ixtiyarına veririk.**

# Haqq səni kəssin!

Çox fikirləşdim, bu yazıya başqa ad seçə bilmədim. Ona görə də Vladimir Svartseviç gərək məndən inciməsin.

O Vladimiri deyirəm ki, ötən ilin yanvarında özünə əziyyət verib Moskvadan Bakıya gəlmişdi. Hansı niyyətlə gəldiyini dəqiq bilmirəm. Bircə bunu deyə bilmərəm ki, o, şəhidlərin qanı hələ yerdə görünən Bakının küçələrinə heç də xeyirxahlıq məqsədi ilə ayaq basmayıbmış. İnanmırsınız? Qulaq asın.

O məşum müdhiş gecə bəlkə də məni bir neçə il qocaltdı. Həqiqətən o faciədən sonra saçlarıma dən düşdü. Yanvarın 19-dan 20-nə keçən gecə körpə uşaqlarım - Təranə və Müqəddəs, həyat yoldaşım, qonşularımız səhərə kimi yatmadılar. Tankların, zirehli maşınların paradı, ölümsaçan fişənglərin "atəşfəşanlığı" artıq öz işini görmüşdü. İnanmazdıq o gecəki qırğın gətirən ölüm tufanına. İnanmırdıq...

Qonşumla Tbilisi prospektinə gedib çıxdıq. Meydanda əzik-üzük olmuş maşınlar, tramvaylar gözə dəyirdi. Meydanda orda-burda adamlar yığışıb qəmli-qəmli söhbət edirdilər. Metronun çıxacağına yaxın şəhidlərin qanı tökülmüş yerlərə qərənfillər düzülmüşdü, şamlar yandırılmışdı, qadınlar ağı deyib ağlayırdılar, kişilər siqarı-siara calamışdılar. Ürəyimi ən çox ağrıdan asfalta milənmiş qan (qanın içində iri çaplı pulemyotun fişəngləri düşmüşdü), deşik-deşik olmuş kepka, qanlı köynəklər, baş yaylığı, ayaqqabılar, yarıya qədər yanmış çörək parçaları idi. Bir də qansızlıq, vəhşilik.

Ümummilli matəm günü yaxınlaşdıqca yanvar günlərini həyəcanla, təlaşla, böyük təəssüf hissi ilə yada salıram. Nə Bakı faciəsinin qurbanlarını unutmağa haqqımız var, nə də haqq yolumuzdan dönməyə. Şəhidlər hər gün, hər saat öz əməlləri ilə, əqidələri ilə bizə mübarizə dərsi deyirlər. Məzarları nurla dolsun.

Həmin gün meydanda təsadüfən bir fotoqrafla rastlaşıb onunla həmsöhbət olduq. Adamların öldürüldüyü yerdə ağlayan qadınların, qərənfillərin şəklini çəkirdi. Qadınlardan biri göz yaşı axıda-axıda şəkilçəkənə dedi:

- Çəkmə, lazım deyil! Onsuz da Moskvada şəkilləri çap eləməyə qoymazlar.

Qadını sakitləşdirdik, Vladimir xeyli şəkil çəkdi, dedi ki, şəkillərdən albom düzəldəcək, seçib qəzetlərdə çap etdirəcək.

Biz də inandıq. Tağızadə küçəsində 68 nömrəli evin 43 nömrəli mənzilinə gəldik. BDU-nun müəllimi Aydın Kazımzadənin yaşadığı evin ikilaylı pəncərəsindən dəyən güllə şifoneri də dəlib divara keçmişdi. Otaqda onun uşaqları - beş yaşlı Həsən, iki yaşlı Lalə oynayırmışlar. Allah rəhm edib tifillərə.

Fotomüxbir V.Svartseviç evə atılmış gülləni uşaqların ovcunun içərisinə qoyub şəkillərini bir neçə formada çəkdi. Elə bu zaman asfalt yoldan tanklar və zirehli maşınlar sürətlə keçməyə başladı. O da obyektivi cəld dəyişdirib şəkillərini çəkdi. Dosent Novruz Quliyevin yaşadığı 46 nömrəli mənzilin pəncərəsini deşən güllə döçəməyə düşmüşdü. Novruz deyirdi ki, pəncərəni təmir etdirməyəcəyəm. Qoy hərbçilərin bəd əməllərindən mənə "yadigar" qalsın. "İzvestiya"-dan gələn müxbir burada da şəkil çəkdi. Kaş heç çəkməyəydi...

Mərtəbələri aşağı enərkən yaşlı kişilərdən kimsə dedi:

- Yoxlayın, görün, doğrudanmı bu şəkilçəkən fotomüxbirdir.

Biz də tələb etdik, müxbir etiraz etmədi. Yarı-hərbi geyimli bu şəxsin - Vladimir Svartseviçin "İzvestiya"nın fotomüxbiri olduğunu təsdiq edən vəsiqəsi vardı. Nömrəsi 130 idi. Ev telefonunun nömrəsi 519-41-64, iş telefonu isə 209-74-36. Dediyinə görə, Kommunal küçəsində 42 nömrəli evin 16-cı mənzilində yaşayır.

Doğrusu, həmin vaxtdan bəri V.Svertseviçin çəkdiyin şəkillərə "İzvestiya" qəzetində rast gəlməmişəm. Görünür, meydanda ağlayan qadınlar haqlı imişlər. "Mədəniyyət" qəzetinin 9 yanvar (1991-ci il) tarixli nömrəsinin birinci səhifəsində dərc edilən "Ara qızışdırmağa görə mükafat" yazısını oxuyub sarsıldım. Bəli o, həmin Vladimir Svartseviç idi. Məqalədən aydın oldu ki, "Literaturnaya qazeta"nın sonuncu (52-ci) nömrəsində ilboyu apardığı foromüsabiqəyə yekun vurulub və 250 manat məbləğində birinci mükafat V.Svartseviçə verilib. Mükafat müəllifi 30-cu nömrədə dərc olunmuş "İndi hara gedim?" (Bakı, 1990-cı ilin yanvarı...) "əsərinə" düşüb. Şəkildə hazırlanmış "əzabkeş erməni qadını" təsvir olunub. Bəs görəsən Bakıda çəkdiklərini hansı günə saxlayıb? Yoxsa o, erməni konyakı içib əyilib, satılıb?

Biz V.Svartseviçin hazırda "İzvestiya" və ya "Literaturnaya qazeta"da işləyib-işləmədiyini deyə bilmərik. Bircə onu deyə bilərik ki, çörəyimizin duzu yoxdur. Hörmət elədiyimiz adamlar bizə qənim kəsilir. Qələmi əyri yazan, şəkilləri "ayırıb-seçən" nanəcib müxbirlərin cəzasını Allah özü versin, bəndələr bacarmaz.

***İdris Şükürlü,***
***"Mədəniyyət" qəzeti, 20 yanvar, 1991, №3***

# Prezident İlham Əliyevin verdiyi cavablar həqiqəti əks etdirir



***Etibar Həşimov,***
***Respublikanın Əməkdar həkimi***

Prezident İlham Əliyevin 12 yanvar tarixində yerli televiziya kanallarına verdiyi müsahibəni hamı kimi mən də diqqətlə dinlədim. Ölkə başçısı bu müsahibədə bir çox köklü məsələlərə toxundu və onun cavabları yalnız həqiqəti əks etdirirdi.

Prezident çox düzgün olaraq qeyd etdi ki, bu gün BMT, Qoşulmama hərəkatı, ATƏT Avropa İttifaqı, MDB yeni reallıqları tamamilə qəbul ediblər, Azərbaycan müharibəni beynəlxalq humanitar normaları pozmadan aparıb. Bunun əksinə olaraq ermənistan tərəfi sərhədlərimizi daim bombalayıb, dinc əhaliyə atəş açaraq onları öldürüb, böyük dağıntılar buna sübutdur. Müharibə nəticəsində beynəlxalq ictimaiyyət növbəti dəfə erməni vandalizminin şahidi oldu. İşğaldan azad edilmiş ərazilərdə dərhal müxtəlif ölkələrdən olan diplomatların, jurnalistlərin, ictimaiyyət nümayəndələrinin təşkil edilmiş şərəfləri erməni siyasətinin əsl simasını ifşa etmişdir.

Ölkə rəhbəri qeyd etdi ki, ikinci Qarabağ müharibəsi zamanı bəzi xarici ölkələr obyektiv mövqe nümayiş etdirmədilər. Fransa kimi aparıcı dövlət açıq Ermənistanın tərəfini tuturdu və mənasız bəyanatlar verirdi. Bu isə cavabsız qalmırdı, Fransanın ermənipərəst mövqeyi bizə çoxdan bəlli idi.

Avropa İttifaqının Azərbaycan əlaqələrinə mənfi təsir göstərə biləcəyinə toxunan Prezident demişdir ki, Azərbaycan xalqı çox təəccüb edir ki, böyük dağıntılara məruz qalmış Azərbaycana cəmi 140 milyon, Ermənistana isə 2,6 milyard avro maliyyə yardımı nəzərdə tutulur. Ən çox dağıntılara, itkilərə Azərbaycan məruz qalıb, Ermənistanda isə bir dənə də bina dağılmayıb.

Televiziya kanallarına verdiyi müsahibədə Azərbaycanda vaksinasiyanın məqsədyönlü şəkildə həyata keçirildiyi göstərilib. Ölkəmizdə bütövlükdə 48 xəstəxana COVİD xəstələrinin müalicəsi ilə məşğuldur. 18 yaşdan yuxarı olan əhalinin 64 faizi artıq iki doza ilə vaksinasiya olunub. Eyni zamanda, buster dozanın 1 milyon 500 mindən çox adam alıb. Üç dəfə vaksinin vurulması hər kəsə tövsiyə olunur.

# Cərrah Elxan Bədəlov Bakıdakı yaralılara donor qanını necə göndərdi?



***1990-cı ilin qanlı yanvarı. Həmin tarixdə Azərbaycanın azadlıq uğrunda mübarizə tarixinin faciəli, həm də şərəfli səhifələrindən biri baş vermişdi.***

20 yanvar xalqımızın öz azadlığı uğrunda mübarizəyə qalxdığı günün başlanğıcı idi. Xalqın idarəsinin ziddinə Bakıya icazəsiz daxil olan Sovet ordusunun qoşun birləşmələri heç nəyə məhəl qoymadan şəhəri qana boyadılar. Etiraz səsini ucaltmaq üçün küçələrə çıxan azadlıq fədailərinə atəş açan rus əsgərləri heç nəyə məhəl qopymamışdılar. Xəstəxanalar ölən və yaralanan dinc sakinlərlə dolu idi. Əlisilahlı rus əsgərləri hər yerdə keşik çəkir, komendant saatını pozanları tutub saxlayırdılar...

Xalq matəm içində idi. Bakıya gediş-gəliş məhdudlaşdırılmışdı. Lerik Rayon Mərkəzi Xəstəxanasında cərrah işləyən qardaşım Elxan Bədəlov düşünürdü ki, xalqın bu ağır günlərində vətənpərvərlik nümunəsi göstərmək istəyirdi. Hər şeydən əvvəl yaralıların həyati zərurət donor qanına ehtiyacı vardı.

Elxan Respublika Səhiyyə Nazirliyinə zəng vurdi, yaralılara cərrahi xidmət göstərmək üçün Bakıya getmək üçün icazə istədi. Lakin buna razılıq vermədilər.

Lakin qəlbən narahat olan Elxan Bədəlov bir neçə həkimin və tibb işçisini otağına dəvət edərək onlara dedi ki, Bakıdakı yaralılara donor qanı göndərmək lazımdır. Onlar razılıq ifadə etdilər. Elxan bir neçə vətənpərvər lerikliyə müraciət etdi, onun səsinə səs verənlərin siyahısı hazırlandı. İlk növbədə könüllü qan verən də Elxan qardaşım oldu. 4 litr, 600 qram qan hazır idi. Qanın miqdarı, rezus-faktoru, qan götürən həkimin və tibb işçilərinin adları qeyd olundu. Donor qanını Bakıya necə çatdırmalı? Bax, əsas məsələ də bu idi.

Bir nəfər vətəndaşın otağa daxil olması Elxanı xəyaldan ayırdı:

- Həkim, sizi deyib gəlmişəm. Mən pürasoralı Əzizəli Cahangirovun oğlum yaralanıb, onu Bakıdakı 5 nömrəli xəstəxanaya aparıblar, ona qan lazımdır, ümidim sizədir...

Elxan bir qədər həyəcanlandı. Bunun təsadüf, ya zərurət olduğunu düşündü.

O qanı Bakıya göndərmək üçün adam axtarıprdı, sanki Allah onun bu arzusunu yerinə yetirdi. Elxan bilirdi ki, yanvar hadisələrindən sonra Bakıda vəziyyət çox gərgindir. Bakıda yaşayan dostları, qohumları qanlı yanvarda baş verənlər barədə ona məlumat vermişdilər. Bakı qorxulu idi, xalq həyəcan içində idi. Elxan Əzizəli kişiyə dedi:

- Əzizəli kişi, dağ adamları, xüsusən də Pirasora kəndində yaşayanlar mərd, qorxmaz və etibarlı olurlar. Sənə 4 litr 600 qram donor qanı verirəm, onu ehtiyatla bük və bu barədə heç kəsə bir söz demədən qanı oğlunun müalicə olunduğu Bakıdakı 5 saylı xəstəxanaya çatdır.

- Baş üstə, doktor, qanı dediyin xəstəxanaya çatdıraram. Elə yaralı oğlum Rövşən də orada müalicə olunur. Bu, lap yaxşı oldu, - deyə Əzizəli kişi sevinclə dilləndi. - İndi bilirəm neçə yaralı şəfa tapacaq.

Beləliklə, Əzizəli Bakıya yola düşür, Elxan isə bir qədər rahatlıq tapır, ürəyində deyir: "Kaş yaralılar üçün daha çox donor qanı göndərə biləydik. Bakıda yaralananları ölümdən qurtarmaq indi daha vacibdir..."

Bəli, Elxan Bədəlov belə vətənpərvər həkim idi. O, ermənilərin bizə qarşı apardığı ədalətsiz müharibə zamanı cəbhəyə əlindən yardımı, köməyi etmiş, özü şəxsən cəbhədəki əsgərlərlə görüşmüş, onları qələbəyə ruhlandırmışdı.

Yazıçı-publisist İdris Şükürlü 2010-cu ildə unudulmaz qardaşım, təcrübəli cərrah, alovlu vətənpərvər, xeyirxahlıq nümunəsi Elxan Bədəlovun vaxtsız sonra "Dünyadan bir loğman köçdü" adlı kitab həsr etmiş və onu nəfis tərtibatla çap etdirmişdir. Oxucuların diqqətinə çatdırmağı lazım bildiyim qeydlərim barədə bu kitabda ətraflı məlumat verilmişdir.

Kitabda nəşr olunmuş "Elxan cəbhə bölgəsində" (səh 24-30) adlı publisistik yazısında Elxan Bədəlovun 1993-94-cü illərdə Lerik RMX-nin baş həkimi işlədiyi illərdə onun vətənpərvərlik fəaliyyəti geniş əksini tapmışdır.

Elxan Bədəlovun mənalı, qaynar həyatı onun həmkarlarına, onu tanıyanlara parlaq bir nümunə idi...

***Vəlixan Bədəlov,***
***Respublikanın Əməkdar həkimi***

# Həqiqətin xəyanət üzərində qələbəsi

Xalqımızın yaddaşında silinməz izlər buraxan tarixi hadisələr çoxdur. Əsrlər ötsə də qan yaddaşımıza yazılan faciələrdən biri də 20 Yanvar - qəhrəmanlıq səhifəsidir. 1990-cı ilin 20 yanvarında sovet ordusunun yaxşı silahlanmış ordusu heç bir dəvət almadan, səbəb olmadan Bakı şəhərinə yeridildi. Mixail Qorbaçovun bağışlanmaz səhvi nəticəsində Vilnüs, Alma-Ata, Tbilisidən sonra Bakı şəhəri döyüş meydanına çevrildi. Tanklar, zirehli texnika vasitələri, qisasçılıq məqsədilə təlimatlandırılmış atıcı bölmələri xüsusi qəddarlıq göstərir, qabaqlarına çıxan hər şeyi əzib-dağıdır, dinc əhaliyə atəş açır, binalara mərmi yağdırırdılar.

Biz 20 Yanvarı xalqımız üçün faciələrlə dolu tarix adlandırsa da, həm də xalqımızın, respublikamızın azadlığı, müstəqilliyi, suverenliyi yolunda ağaya qalxmış xalqın qəhrəmanlıq tarixi idi. Azərbaycan xalqı qanlı yanvarda yenilməzliyini, torpaq uğrunda qurban getməyə hazır olmaq bacarığını, Vətənə, dövlətə sədaqətini, ağır tanklardan qorxmadığını sübut etdi. Həm də bunu dünyaya nümayiş etdirdi, qəhrəmanların şanlı ənənələrinə sadiq qaldığını sübut etdi.

Onu da diqqətə çatdırmaq gərəkdir ki, Azərbaycan azadlıq mübarizəsi aparan övladları ilə öz qürurunu itirmədi, müstəqillik uğrunda mübarizə əzmi qırılmadı, çətin anlarda sıx birləşdi. İmperiyanı lərzəyə salan qanlı yanvar çürüməkdə olan imperiyanın süqutunu sürətləndirdi, onun qəsbkar, cinayətkar, hegemonçuluq mahiyyətini açıb göstərdi. Ermənipərəst Mixail Qorbaçovun apardığı avantürist, mərkrli, qeyri-obyektiv siyasət geniş xalq kütlələrinin nifrətinə, qəzəbinə səbəb oldu, rus imperiyasının başçısı bir daha dünyada lənətləndi. Sonda başqa xalqların da özünə böyük qardaş bildiyi rus sovetinə onların inamı sarsıldı. Yalançı qardaşlığın ömrü bitdi. Yalançı qardaşlığın ömrünə son qoyulan gün yollar ayrılmağa, fikirlər durulmağa başladı. Milyonlarla ürəkdən qopan hiddət, nifrət sovet rejimini çökdürdü. Azərbaycan dövlət müstəqilliyini bərpa etdi.

Biz 20 Yanvar şəhidlərinə, azadlıq mücadiləsi yolunda qurban gedənlərə Allahdan rəhmət diləyirik. Onların ruhu ölməzdir, adı qəlbimizdədir.

***Zəfər Əliyev,***
***Bradi kəndi***

# Vaksin spesifik immun yaradır



***Maqsud Ağayev,***
***Lerik RMX-nın publik hüquqi şəxsin direktoru***

***Ötən müddət ərzində Azərbaycanda koronavirus əleyhinə vaksinasiya uğurla davam edir. Artıq səhiyyə müəssisələrinin bir çoxunda peyvəndləmə işi davam etdirilir. Virusa qarşı immun sistemini gücləndirmək üçün bu aksiyada könüllü iştirak edən, peyvənd olunan insanlarda hər hansı mənfi təsir aşkar olunmayıb.***

Aydın məsələdir ki, pandemiyanın yayılmasının qarşısını almaq üçün tətbiq olunan nə sərt karantin, nə mövcud məhdudiyyətlər, nə mütləq evə qapanmaq, nə maska, nə əlcək, nə cərimə, nə qorxu, nə də başqa vasitələr bu problemin tam şəkildə həlli deyildir. Bütün görülən tədbirlər bu təhlükəli prosesin sürətlənməsinin qarşısını yalnız müvəqqəti olaraq, cüzi şəkildə ala bilir. Amma tarix sübut etmişdir ki, müxtəlif dövrlərdə baş verən pandemiyaların qarşısının mütləq şəkildə alınmasının yolu yeganə olaraq əhalinin kütləvi şəkildə vaksinasiyasıdır.

Vaksinin əsas prinsipi aktiv immunizasiyanın, yəni, müəyyən infeksion törədiciyə qarşı spesifik immun cavabın yaranmasını təşkil etməkdir. Hər kəs bilməlidir ki, hər bir vaksin yüksək keyfiyyətli müasir texnologiya ilə hazırlandığı üçün onun sterillik və təmizlik dərəcəsi də çox yüksək olur. Və bu cür vaksinlərin tətbiqi zamanı normal insanlarda heç bir ciddi narahatlıq və fəsad yaranmır. Lakin vaksinlərə və digər preparatlara qarşı yüksək həssaslığı və allergik göstərişləri, enzim patologiyaları olan şəxslər istisna qrupuna aid edirlər. Bunun üçün onlar peyvənd olunmazdan əvvəl mütləq sağlamlıqları barədə məlumatlı olmalı və yan təsirlər yaranmaması üçün bu barədə peyvənd aparılan zaman bildirməlidirlər.



Hazırda dünyanın bir çox ölkələrində, o cümlədən respublikamızda COVİD-19 əleyhinə aparılan vaksinasiya prosesi zamanı insanlar arasında heç bir ciddi fəsadlara rast gəlinməməsi bir daha onu sübut edir ki, bəzi mənbələrdə bu prosesin gedişinə mənfi mənada kölgə salmaq məqsədilə aparılan söhbətlərin heç bir elmi əsası yoxdur. İnsanların fiziki sağlamlığının qorunması üçün ölkəmizdə pandemiya əleyhinə aparılan COVİD-19 vaksinasiyası prosesilə bağlı olan əks təbliğat yolverilməzdir. Buna görə də kimsə bu cür əsassız şaiyələrə əhəmiyyət verməməli və öz sdağlamlığının qorunmasına məsuliyyətlə yanaşmalıdır.

# Qaz işçiləri ilə yekun vurur



*Ülfət Bəbirov,*
*Lənkəran Regional Qaz İstismar idarəsinin Lerik XS üzrə rəis müavini*

Lerik XS üzrə 56 qazlaşmış yaşayış məntəqəsi olmaqla 6 210 əhali, o cümlədən 87 SMART tipli qaz sayğacı ilə təmin olunmuş abonent, 101 qeyri-əhali abonenti mövcuddur, 3 ölçü qovşağından qaz alır. Bunlardan Ordahal QPS-də mexaniki sayğac (G-25), Lerik-RVU və Lerik QPS-lərində isə elektron tipli ROC-407 ölçü vasitəsi quraşdırılmışdır.

Lerik XS-də 456 826 p/metr qaz kəməri, 51 ədəd qaz tənzimləyici şkaf, 2 dəst RDUK-200-2H tipli qaz tənzimləyicisi, 506 ədəd siyirtmə mövcuddur. Bu ölçü qovşaqları üzrə 21.955 p/metr daşıyıcı qaz kəmərləri cari il ərzində kipliyə yoxlanılmış, aşkar edilmiş nöqsanlar aradan qaldırılaraq normal vəziyyətə gətirilmişdir.

2021-ci il ərzində Lerik şəhərində və ayrı-ayrı kəndlərdə 356 fərdi ev və 19 qeyri-əhali abonenti qazlaşdırılmışdır.

Qeyd etmək istəyirəm ki, 2021-ci il ərzində Lerik rayonu üzrə 61 abonentdən ibarət Babakücə kəndinin qazlaşdırılması işlərinə start verildi və küçə qaz xətləri tamamilə çəkilərək yekunlaşmışdır.

Lerik XS 2021-ci il ərzində ötən ilə nisbətdə 800 min 502 $m^3$ (9,5%) artıq təbii qaz qəbul edərək 9 milyon 261 min 021 $m^3$ təbii qaz qəbul etmişdir. Təbii qazın ötən ilin müvafiq dövrünə nisbətdə artıq qəbul olunmasının səbəbi abonentlərin təbii qaza olan tələbatın artması, əhali və qeyri-əhali abonentlərinin sayının artması (Lənkəran rayonunun 7 kəndi (1055 abonent) istismarımıza verilmişdir) olmuşdur. Qəbul olunan təbii qazın 7 milyon 951 min 861 $m^3$ əhaliyə, 1 milyon 175 min 885 $m^3$ isə qeyri-əhali abonentlərinə satılmış, 1177 $m^3$ isə texnoloji sərfiyyatlara işlənmişdir.

2021-ci il ərzində qaz sayğaclarına 2586 ədəd plomb vurulmuş, istismar müddəti bitmiş 1524 ədəd qaz sayğacı yenisi ilə əvəzlənmişdir.

Lerik XS-nin mühəndis-texniki işçilərindən yaradılmış daxili komissiyanın keçirdiyi mütəmadi reydlər zamanı "Qazdan istifadə qaydaları"nı kobud şəkildə pozaraq qaz sayğaclarına müdaxilə edən 52 abonentə barəsində dəymiş ziyanla bağlı akt tərtib olunmuş və nəticədə məbləği 11 266,90 manat olmaqla 112 min 573 $m^3$ itirilmiş təbii qaz bərpa edilmişdir.

Lerik XS üzrə 2021-ci il ərzində "Təmiz Qaz" QSC tərəfindən aşkarlanmış 161 ədəd, daxili imkanlar hesabına aşkarlanmış 719 ədəd, qaz sızması gecikdirilmədən ləğv edilmiş, "104" çağrı xidmətinə il ərzində daxil olmuş 350 ədəd sifariş vaxtlı-vaxtında keyfiyyətlə yerinə yetirilmişdir. Xidmət sahəsinin ərazilərində il ərzində müxtəlif səbəblərdən dayaqlardan düşmüş 3495 p/m qaz xətti dayaqları bərkidilməklə dayaqlar üstünə qaldırılmışdır.

2021-ci ilin "Tədbirlər Planı"na uyğun olaraq Lerik şəhərinin H.Aslanov küçəsində d-57 mm-lik 47 p/m, C.Şahiyev küçəsində d-57 mm-lik 192 p/m, Lerik rayonun Lüləkəran kəndində d-57 mm-lik 120s p/m,daxili imlanlar hesabına Lüləkəran kəndində Vətən müharibəsi qazisinin evinin qazlaşdırılması məqsədilə d-32,d-25 və d-20 mm-lik 128 p/m, V.İbrahimov küçəsində şəhid ailəsinin müraciətinə əsasən qapı keçidinin quraşdırılması məqsədilə d-57 mm-lik 15 p/m, Məhləbad kəndində d-57 mm-lik 120 p/m, ümumilikdə 622 p/m müxtəlif diametrli qaz xətti çəkilmişdir.

Daxili imlanlar hesabına ərazimizin müxtəlif sahələrində 150 ədəd qaz sayğacı həyətlərdən küçəyə çıxarılmışdır.

2021-ci ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar "Tədbirlər Planı"na uyğun olaraq XS-nin ayrı-ayrı ərazilərində 3 ədəd yeni ŞQTM tipli yeni qaz tənzimləytici quraşdırılmışdır, Lerik şəhərinin müxtəlif küçələrində qaz kəmərlərini korroziyadan qorumaq məqsədi ilə 1511 p/metr qaz kəməri yenidən rənglənmişdir.

İl ərzində qaz sızmalarını aradan qaldırmaq məqsədilə istismara yararsız 95 ədəd qaz kranı və 36 ədəd FQT yenisi ilə əvəzlənmişdir.

Təbii qaz itkilərinin qarşısını almaqdan ötrü ötən dövrlərə nisbətən sərfiyyatı azalan abonentlərin qaz sayğaclarına yerində baxış keçirməklə aşağı sərfiyyatı qeyd etməyən və yaxud qismən qeyd edən qaz sayğaclarının araşdırıb yeni qaz sayğacları ilə əvəz olunması qarşımızda duran əsas məsələlərdən biridir.

Abonentlərin haqlı narazılığına səbəb ola biləcək problemlərin qabaqcadan həlli istiqamətində tərəfimizdən təxirəsalınmaz tədbirlər görülür.

Hal-hazırda abonentlərimiz tələbata uyğun olaraq fasiləsiz təbii qazla təmin olunur.

# İltimas Nəbulla oğlu Nəbiyev 66 yaşında vəfat etmişdir



Rayonumuzun ictimaiyyətinə ağır itki üz vermişdir. İltimas Nəbulla oğlu Nəbiyev 2022-ci il yanvarın 11-də dünyanı bürüyən xəstəlikdən 66 yaşında vəfat etmişdir. O Rusiyada tələbə inşaat dəstəsinin tərkibində olarkən xuliqanlar tərəfindən başından aldığı zədədən ömrünün sonunadək əziyyət çəkib, dava-dərmanla yaşayırdı.

İltimas Nəbiyev 1955-ci ildə Gürdəsər kəndində anadan olmuşdur. 1973-cü ildə orta məktəbi uğurla bitirmiş, sonra iki il hərbi xidmət keçmişdir. 1976-cı ildə Azərbaycan Dövlət Universitetinə (indiki BDU) daxil olmuş və 1982-ci ildə ali təhsilini başa vurmuşdur. İşlədiyi 15 ildə Lerik rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru olmuş, muzeyin yaradılmasında və eksponatların toplanmasında fəal iştirak etmişdir.

İltimas Nəbiyev işləyərkən elmi işlə məşğul olmuşdur. O, Azərbaycan Milli Elmlər Akademiyasının dissertantı idi. Yaradıcı işi ilə əlaqədar mətbuatda maralıq elmi yazıları çap edilmişdi.

Əmək fəaliyyətinin sonrakı illərində Bakının H.Z.Tağıyev adına Neft və Qazçıxarma İdarəsində mühəndis vəzifəsində çalışmışdır. Mərdəkan Bələdiyyəsinə seçkilərdə üzvlüyə namizəd olmuşdur.

Seçilən ziyalı, alovlu vətənpərvər, yaxşı dost, xeyriyyəçi insan İltimas Nəbiyev yurdun təəssübkeşi idi.

Mehriban ailəsində dörd övlad böyütmüşdü, iki nəvəsi vardu.

**Allah rəhmət eləsin!**

# İslamda 40 qadağa!

İslam Peyğəmbərinin (s.ə.s)-ın nəhy etdiyi və məkruh saydığı (bəyənmədiyi) qırx əməl

Allah-Təala Qurani Kərimin "Nəhl" surəsinin 7-ci ayəsində buyurur: "Rəsulumuzun sizin üçün gətirdiyi hər bir şeyi qəbul edin və qadağan etdiyi bütün şeylərdən uzaq durun!"

1. Qızıl və gümüş qabda xörək yemək;
2. Heyvanı yandırmaq;
3. Cinsi əlaqə zamanı üzü qibləyə olmaq;
4. Kişilərin ipək paltar geyinməsi;
5. Kişilərin qızıl üzük taxması;
6. Cadugərlərə müraciət etmək;
7. Nərd oynamaq, tar və tənbur (simli musiqi alətlərindən biri) çalmaq;
8. Qeybət etmək və ona qulaq asmaq;
9. Xəbərçilik etmək cə xəbərçilik edənə qulaq asmaq;
10. Günaha sövq edən məsələlər haqqında danışmaq;
11. Sələm (faiz) almaq və yalandan şəhadət (şahidlik) vermək;
12. Tualetdə üzü qibləyə oturmaq;
13. Yuxunu nəql edərkən yalan danışmaq;
14. Cənabətli halda məsciddə oturmaq;
15. Qəzəblənmək və başqaları ilə əlaqəni kəsmək;
16. Təkəbbürlə yol getmək;
17. Qadının mehriyyəsi barəsində zülm etmək;
18. Şəhadəti gizləmək;
19. Qonşuya əzab-əziyyət vermək;
20. Yoxsul bir müsəlmanı təhqir etmək;
21. Naməhrəmə baxmaq;
22. Əza məclislərində qadının növhə deməsi və ona qulaq asmaq;
23. Fırıldaqçılıqla məşğul olmaq və insanları aldatmaq;
24. Həyat yoldaşına əzab-əziyyət vermək;
25. Pis işləri kiçik saymaq, nəzərə kiçik gəlsə də belə;
26. Heyvanın ayaqlarını (çubuqla) vurmaq;
27. Ev əşyalarını qonşudan əsirgəmək;
28. Meyvəni yetişməmişdən qabaq satmaq;
29. Cənabət halında yemək;
30 Hamamda misvak vurmaq;
31. Ağız və ya burun suyunu məscidə atmaq;
32. Məscidi keçid yolu qərar vermək;
33. Yola və barlı ağacın altına bövl etmək;
34. Suya bövl etmək;
35. Bal arısını öldürmək;
36. Allahdan qeyrisinə and içmək;
37. İmam cümənin xütbə oxuduğu vaxt söhbət etmək;
38. Misdən, yaxud dəmirdən düzəldilmiş üzük taxmaq;
39. Heyvanlar kimi su içmək;
40. Yeməyi isti-isti yemək.

***Təqdim edəni:***
***Sənan Köçəriyev***

# Qədim ağaclar

**Dəmirağac.** Talış meşələrinin "şahı" məşhur dəmirağacdır. Hündürlüyü 20-25 metrə çatan, diametri 60-80 santimetr olan bu ağaca başqa yerlərdə rast gəlinmir. Budaqları bir-birilə "qaynayıb" birləşir, çox isti vaxtlarda ağac sanki "ağlayır", özündən sərin du damcıları axıdır, qışda qırmızıya bənzər çiçək açır. Maraqlıdır ki, dəmirağac qurd salmır, qayada bitir.



Bu ağac suda batmır, çox bərkdir, balta ilə kəsdikdə cingildəyir. 200 il yaşayır. Bu nadir ağacdan düzəldilən mebel öz-özünə neçə rəngə çalır. Çox maraqlıdır ki, I Pyotrun Petrodvoresdə təkdirdiyi sarayda divar üzlüyünə dəmirağacdan naxışlar vurulmuşdur. Onu da qeyd edək ki, bu ağac xalq təsərrüfatı üçün əvəzsiz materialdır. Ondan maşınlar üçün hissələr hazırlanmasında istifadə olunur.

**Azat (Nil) ağacı.** Qabığı hamar və tünd boz rənglidir. Hündürlüyü 40 metrdən çox olur. Azat ağacı Asiya, Şimali Amerikanın neogen florasında geniş yayılmış, Çində, Yaponiyada və Koreyada 5-6 növü qalmışdır.

Yaponiyada Azat ağacı növlərindən kosmik gəmiləri rəngləmək üçün yüksək keyfiyyətli boyaqlar alınır ki, bu da dünya bazarında çox baha qiymətə satılır. Talış Azat növü də yüksək rəngvermə qabiliyyətinə görə fərqlənir. XIX əsrin əvvəllərində buradan Yaponiyaya Azat ağacı növləri aparılmış və geniş meşələr salınmışdır. Görəsən bizim meşələr nə vaxt "milli park" adlandırılacaq və burada balta səslərinə son qoyulacaq?

**Qaraçöhrə.** Buna talışca "bızkışt" deyirlər. Üçüncü dövrün qədim ağaclarından biri də qaraçöhrədir. Ona respublikamızın iki rayonunda rast gəlinir. Qəbələ rayonunun ərazisində cəmi bir neçə ədəd qaraçöhrə qalıb. Lerik rayonunun Hamarat kəndi yaxınlığında isə xalis qaraçöhrə ağaclığı var. Zənnimizcə, qaraçöhrənin bu günə kimi yaşamasına yarpaqlarının və tikanlarının zoğlarının zəhərli, olması imkan vermişdir.

# Yüksək təzyiqdən əziyyət çəkənlərə 8 sadə məsləhət

Hipertoniya xəstəliyi infarkt və insult kimi ağır pozulmaların əsas səbəbidir. Bu səbəbdən bu xəstəliyi vaxtında aşkar etmək və düzgün müalicə etmək həyati vacibdir.

Hipertoniya xəstəliyinin müalicəsi tək dərman preparatların qəbulu ilə qurtarmır. Bu sadə məsləhətlər sizə təzyiqi normada saxlamağa kömək edəcək:

1. Arıqlayın. Bir çox hallarda hipertoniya artıq çəki və piylənmə fonunda inkişaf edir. Bəzən yalnız bədən çəkisinin azalması təzyiqin tənzimlənməsinə kömək edir.

2. Qidalanmanızda duzu azaldın. Duzun tərkibində olan natrium orqanizmdə mayeni saxlayır və bu da təzyiqin qalxmasına səbəb olur. Şorabaları, hisə verilmiş qidaları, konservləri yeməyin. Dəniz duzundan istifadə edin. Onun tərkibində natrium daha azdır.

Qidanın dadını yaxşılaşdırmaq üçün ədviyyatlardan, göyərtilərdən, sarımsaqdan istifadə edin.

3. Yağların qəbulunu azaldın. Yağlı ət, kolbasa-sosis, heyvan piyi qidalanmanızdan çıxarılmalıdır.

4. Tərkibində kofein olan içkiləri (tünd çay, qəhvə, koka-kola, "enerji içkilər") içməyin. Bu içkilər təzyiqin qalxmasına səbəb olur.

5. Kalium, maqnezium, C vitamini ilə zəngin olan məhsulları qəbul edin. Bu qidalar damarları möhkəmləndirir, ürəyin fəaliyyətini yaxşılaşdırır. Bu məhsullar arasında:

- qara qavalı, ərik, balqabaq, kələm, kartof, banan (kalium)
- yulaf yarması ("gerkules"), qarabaşaq, darı yarması, çuğundur, kök, kahı, qoz, cəfəri (maqnezium)
- çaytikanı, sitrus meyvələri, itburnu, qara qarağat (C vitamini)

6. Fiziki aktiv olun. Bədən tərbiyəsi, üzgüçülük, piyada gəzmək hipertoniya zamanı çox faydalıdır.

7. Kifayət qədər yatın.

8. Siqaret çəkməkdən imtina edin. Siqaret çəkmək damarların sıxılmasına (spazm) səbəb olur. Bu da öz növbəsində təzyiqi qaldırır.



*İltimas SƏMİMİ*

## AYAĞIM ALTINDA BÜTÜN YER ÜZÜ

Uçurdur duğular məni göylərə,
Enmək istəmirəm o kəkəşandan.
Salam söyləyirəm nurlu səhərə,
Nə var ən ləzzətli şöhrətdən, şandan.
Enmək istəmirəm o kəhkəşandan.

Ayağım altında bütün yer üzü,
İşıq çiləyirəm dar ürəklərə.
Paxıl insanların qoy çıxsın gözü,
Şöləyəm, çırağam kor bəbəklərə.
İşıq çiləyirəm dar ürəklərə.

Şeirim məzar qazır, sözüm gor qazır,
Fəqət həsətimi çəkən kəslərə.
Hər yeni şeirə ilhamım hazır,
Adımı eşidən batır qan-tərə.
Fəqət həsətimi çəkən kəslərə.

Gəl, sən də kölgəmdə dincəl, bədxahım,
Palıdam, altımda hamıya yer var.
Məni qoruyacaq uca Allahım,
Azmısan yolunu, səni dərd tapar.
Palıdam, altımda hamıya yer var.

İblisdi, şeytandı aşnan, sirdaşın,
Gəmirir içini, gəmirir həsəd.
Bulanıq çay kimi havalı başın,
Canın ağrılardan qurtulmaz, əlbət.
Gəmirir içini, gəmirir həsət.

Elə bil üstünə küləklər əsir,
Yuxu da gözündən ərşə çəkilib.
Sözüm qılınc kimi ömründən kəsir,
Çağlayan təbimə gözün dikilib,
Yuxu da gözündən ərşə çəkilib.

Kəsir nəfəsini yoxuşlu yollar,
Üzür ümidini nəfsin nə yaman.
Fəqət sağalmayan ağrıların var,
İçini paxıllıq göynədir hər an.
Üzür ümidini nəfsin nə yaman.

Şeirim məzar qazır, sözüm gor qazır,
Fəqət həsətimi çəkən kəslərə.
Hər yeni şeirə ilhamım hazır,
Adımı eşidən batır qan-tərə.
Fəqət həsətimi çəkən kəslərə.

***22.01.2022.***

## QOY BİRCƏ BALIQ DA YATIB QALMASIN

İsidə bilmədi səni bu bahar,
İçində çovğunlu, boranlı bir qış.
Acı xatirələr ürəyə dağdır,
Bir az taleyindən, bəxtindən danış.

Qaçsın qoy dənizin yuxusu tamam,
Qoy bircə balıq da yatıb qalmasın.
Sahili titrətsin dəli dalğalar,
Heç əcəl zəngini vaxtsız çalmasın.

Bəlkə, ünvanına gecikir kimsə,
Bəlkə, gecikənlər tələsir yaman.
Bəlkə, tələsənlər dayansın bir az,
Bəlkə, onları heç xoşlamır zaman.

***26.01.2022.***

## ÖZÜNÜ ALDATMAQDIR

Salam, kimsəsiz küçə!
Kimsəsiz şəhər,
Kimsəsiz evlər.
Üstündən
Tozu tökülən ağacların
Söylədiyi xatirələri
Daha quşlar dinləməz.
Ovcumu açıb taleyimi oxuma,
İndi taleləri küləklər oxuyur.
Üstündə qara ruhlar dolaşdıqca,
Daşların qurd -qurd ulayır.
Yolların toz qoxuyur, toz...
Kimsəsizlərin göz yaşısan,
Əllərimi sənə sarı uzadıb
Aman istəmərəm.
Amansızsan,
Ağlar qoydun çoxunu.
Səndən ümid diləmək
Özünü alatmaqdır.

***03.01.2022.***

## BU ADAMLAR

Sağım adam,
Solum adam.
Topa-topa gəlib keçir,
Məndən belə adam -adam.
İçim adam, çölüm adam,
Tabut-tabut daşıyıram
Adamları xatirə yaddaşına.
Boylanıram məzarlıqda
Doğmaların başdaşına,
Vaxtsız ölən adamların
Yaxınların göz yaşına.
Bir az torpaq, bir az hava,
Bir az od,
Bir az da sudur.
Udar hələ öz nəfsinin
Caynağında çabalayan adamları,
Üşüdəcək yer üzünü,
Yandıracaq içimizi,
Boğularıq damlasında...
Sel adamlar,
Dərya kimi talatumlu,
Sonra belə torpaq olub,
Torpaqlaşar bu adamlar...

***04.01.2022.***

## GÖZ YAŞLARIN ÜMİDİNDİR

Gözlərindən süzülən yaşdır,
Üzündəki qəmdir.
Sonu bilinməyən bu yol,
Hələ çox yolçu itirər.
Darıxdımı,
İçində hönkür -hönkür ağlayan
Xatirələri yollara söylə.
Hövsələsiz insanlar səni dinləməz,
Ya dənizə üz tut,
Ya da əngin göylərə.
Əllərini uzadıb
Ürəyində qalaq -qalaq yığılan
Dərdini danış.
Ümid təkcə göz yaşların,
Ağlayırsan, demək, hələ ölməmisən.

***11.01.2022.***

## Allah rəhmət eləsin

Lerik RİH başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev və aparatın kollektivi RİH başçısının müavini Habil Məlikova, anası

**Minarə Vəli qızının**

vəfatından kədərləndiyini bildirir, başsağlığı verir.

---

Hidayət Bəşirov, Qəhrəman Əliyev, İlham Dadıyev, Mahmud Zaidov, İdris Şükürlü, Arif Həsənov, Nizami Muradov, Zöhrab Salayev, Müqəddəs Dənziyev, Vəligülla Alışov, Hüseynbala Əliyev, Veysəl Məlikov, Tofiq Bədəlov, Elxan Əliyev, Balaşirin Nəsirov, Ülfət Bəbirov, Sənan Köçəriyev, Habil Əliyev, Maqsud Ağayev, Etibar Həşimov, Elman Abbasov RİH başçısının müavini Habil Məlikova, anası

**Minarə Vəli qızının**

vəfatından kədərləndiyini bildirir, başsağlığı verirlər.

---

Nəsib Məmmədov, Şahlar Fazilov, Zahid Səmədov, Xasay Məmmədov, Vahid Cəbrayılov, Əkrəm Abdullayev, İltifaq Məmmədov, Rəhim Bədəlov, Qələmirzə Məmmədov Həmid Səlimov RİH başçısının müavini Habil Məlikova, anası

**Minarə Vəli qızının**

vəfatından kədərləndiyini bildirir, başsağlığı verirlər.

---

Lənkəran Regional Mədəniyyət İdarəsinin Lerik rayon nümayəndəsi Müqəddəs Dənziyev və Lerik rayon Mədəniyyət Mərkəzinin kollektivi

**Əliabbas Məlikovun**

vaxtsız vəfatından kədərlənir, dərin hüznlə başsağlığı verir.

---

Balaşirin Nəsirov, İdris Şükürlü, Tərxan Feyziyev, Mahmud Zahidov, Elxan Əliyev, Mükafat Yaqubov, İltifat Qasımov, Möhübbət Ağayev,

**Əliabbas Məlikovun**

vaxtsız vəfatından kədərlənir, dərin hüznlə başsağlığı verirlər.

Redaktor
İdris ŞÜKÜRLÜ

Təsisçilər:
Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin kollektivi
H/№AZ05AIIB33080019447400220174
VÖEN:6300050071

Lisenziya № V 280
İndeks 96935
Hər kəs öz imzasına cavabdehdir.
Əlyazmalar geri qaytarılmır

Redaksiyanın ünvanı:
Lerik şəhəri,
Həzi Aslanov küçəsi, 1
Tel: (070) 200-21-54

Qəzet "Son Dakika" MMS mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Sifariş: 102

